AUDITOR HESABATI (RƏY)

"İDEAL KREDO KREDIT İTTİFAQI" MMC-nin rəhbərliyinə

VÖEN 1401430401

Biz, "İDEAL KREDO KREDİT İTTİFAQI" MMC-nin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və zərər, məcmu gəlirlər , kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları "İDEAL KREDO KREDİT İTTİFAQI" MMC-nın 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə malıyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Malıyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (və ya düzgün və ədalətli təsəvvür yaradır).

Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır. Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatım "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq "İDEAL KREDO KREDİT ITTİFAQI" MMC-dən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrinə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik "İDEAL KREDO KREDİT ITTİFAQI" MMC-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik "IDEAL KREDO KREDİT İTTİFAQI" MMC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər "İDEAL KREDO KREDİT İTTİFAQI" MMC-nin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki,

əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

"NİAC" MMC-nin

direktor-auditor

01 fevral 2026-cı il

Bankın adı: *"İdeal Kredo Kredit İttifaqı" MMC*

Hesabat tarixi: *IV rüb 2025-ci il*

RƏQƏMSƏL BALANS

(min. qəp.)

AKTİVLƏR		Ayın sonuna qalıq
10	**Nağd pul, digər ödəniş vasitələri və affinə edilmiş qiymətli metallar**	**9,745.00**
10010	**Kassa - milli valyutada**	9,745.00
100101	Kassa - milli valyutada	9,745.00
15	**Maliyyə təşkilatlarında yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər**	**4,195.00**
15011	**Banklardakı «nostro» müxbir hesablar – milli valyutada**	4,195.00
150110	Rezident banklardakı «nostro» müxbir hesablar – milli valyutada	4,195.00
21	**Fiziki şəxslərə və fərdi sahibkarlara verilmiş kreditlər**	5,130.00
21011	**Fiziki şəxslərə verilmiş qısamüddətli kreditlər - milli valyutada**	7,364.08
210110	Rezident fiziki şəxslərə verilmiş qısamüddətli kreditlər - milli valyutada	7,274.00
210112	Rezident fiziki şəxslərə verilmiş qısamüddətli kreditlər üzrə hesablanmış ödənilməmiş faizlər - milli valyutada	5,130.00
21091	**Fiziki şəxslərə və fərdi sahibkarlara verilmiş kreditlər üzrə ehtiyatlar - milli valyutada**	-2,234.00
210910	Rezident fiziki şəxslərə verilmiş kreditlər üzrə ehtiyatlar - milli valyutada	-2,234.00
28	**Əsas vəsaitlər və qeyri-maddi aktivlər və investisiya mülkiyyəti**	**603.00**
28030	**Mebel və avadanlıqlar - milli valyutada**	**603.00**
280301	Mebel və avadanlıqlar - milli valyutada	603.00
	AKTİVLƏRİN CƏMİ	19,573.00

PASSİVLƏR		Ayın sonuna qalıq
50	**Kapital**	19,673.00
5002	**Kredit təşkilatlarının nizamnamə kapitalı**	5,043.00
50020	Adi səhmlər	5,043.00
5011	**Keçmiş il-lərin mənfəəti/zərəri**	14,630.00
50110	Keçmiş illərin mənfəəti/zərəri	14,630.00
	PASSİVLƏRİN CƏMİ	19,673.00

Rəhbər: *Qiyasbəyov Rövşən Elşən oğlu*

Baş mühasib: *Əhmədov Elşad Məhəmməd oğlu*

Tarix: *03 fevral 2026-cı il*

M.Y.

«İDEAL KREDO» kredit ittifaqı

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti

NİAC

Limited Liability Company

Azerbaijan Republic

Forma 4

Kredit ittifaqının adı: "İdeal Kredo Kredit İttifaqı" MMC

Hesabat dövrü: IV rüb 2025

Hesabatın tərtib edilmə tarixi: 01 fevral 2026-cı il

Mənfəət və zərər haqqında
Hesabat

(manatla)

Maddələr	Hesabat rübü	İlin əvvəlindən hesabat rübü daxil olmaqla
I.Faiz gəlirləri cəmi:	**432**	**1364**
a) verilmiş kreditlər üzrə	432	1364
b) Dövlət qiymətli kağızları üzrə		
2. Faiz xərcləri cəmi:	**0**	**0**
a) kreditlər üzrə	0	0
b) digər	0	0
3. Xalis faiz gəliri (zərər) (1-ci sətir çıxılsın 2-ci sətir)	**432**	**1364**
4. Qeyri-faiz gəlirlərinin cəmi:	**2234**	**2234**
a) qeyri-adi gəlirlər	2234	2234
b) digər gəlirlər	0	0
5. Qeyri-faiz xərclərinin cəmi:	**151**	**851**
a) əmək haqqı və ona bərabər tutulan xərclərin cəmi	**0**	**0**
a1) əmək haqqı və əlavələr		
a2) mükafatlar		
a3) sosial tə"minat xərcləri		
a4) kompensasiya və müavinətlərin digər növləri		
b) əsas vəsaitlərlə bağlı xərclər	**0**	**0**
b1) icarə haqqları		
b2) amortizasiya		
b3) əsas vəsaitlərlə bağlı digər xərclər		
c) əməliyyat və komisyon xərcləri		
d) digər xərclər	151	851
6. Əməliyyatlardan daxil olan mənfəət (zərər) (3-cü sətir üstəgəl 4-cü sətir çıxılsın 5-ci sətir)	**2515**	**2747**
7. "Xüsusi ehtiyat fondu"nun yaradılmasına ayırmalar (xərclər)	2234	2234
8.Vergilər çıxılanadək mənfəət (zərər) (6-cı sətir çıxılsın 7-ci sətir)	**281**	**513**
9. Mənfəətdən ödənilən vergilər		
10. Vergilər çıxılandan sonra xalis bölüşdürülməmiş mənfəət (zərər) (8-ci sətir çıxılsın 9-cu sətir)	**281**	**513**

İzahat: 8-ci sətr üzrə zərər yaranarsa, bu məbləğ 10-cu sətrə köçürülür

İdarə Heyətinin Sədri — *Ötəkbərov Rövşən Elxan oğlu*

İdarə Heyətinin məsul üzvü: *Əhmədov Eşq Məhəmməd oğlu*

Forma 3

Kredit İttifaqının adı: "İdeal Kredo Kredit İttifaqı" MMC

Hesabat dövrü: IV rüb 2025

Hesabatın tərtib edilmə tarixi: 01 fevral 2026-cı il

Balans

	BALANSIN MADDƏLƏRİ	Məbləğ
	AKTİVLƏR	
1	Nağd pul	9745
2	Bank hesabları	4195
3	Kreditlərin cəmi	2234
4	Xüsusi ehtiyat fondu	2234
5	Xalis kreditlər (kreditlər çıxılsın "Xüsusi ehtiyat fondu")	0
6	Dövlət qiymətli kağızları	
7	Əsas vəsaitlər	603
8	Hesablanmış faizlər	5136
9	Digər aktivlər	0
10	**Aktivlərin cəmi:**	19673
	PASSIVLƏR	
	Öhdəliklər	
11	Alınmış kreditlər	0
12	Ödəniləcək faizlər	
13	Digər öhdəliklər	0
14	**Öhdəliklərin cəmi:**	0
	Kapital	
15	Nizamnamə kapitalı	5043
16	Bölüşdürülməmiş mənfəət (zərər)*	14630
16.1	Keçmiş illərin xalis mənfəəti (zərər)	14117
16.2	Cari ilin xalis mənfəəti (zərər)	513
17	**Kapitalın cəmi:**	19673
18	**Passivlərin cəmi:**	19673

* Kİ zərərlə işləyərsə, bu zərər mənfi işarə ilə mötərizədə əks etdirilməlidir

İdarə Heyətinin Sədri: *Əkbərov Rövşən Elxan oğlu*

İdarə Heyətinin məsul üzvü: *Əhmədov Elşad Məhəmməd oğlu*

«İDEAL KREDO» kredit ittifaqı

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti NİAC Limited Liability Company Azerbaijan Republic